BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2007

# KİTABLAR ALƏMİNDƏ

## QAFQAZŞÜNASLIĞA QİYMƏTLİ TÖHFƏ

**Q.Ə.ƏLİYEV**
*Bakı Dövlət Universiteti*

Tarixlə maraqlanan hər kəs bilir ki, keçmiş Sovet İttifaqında ayrı-ayrı respublikaların, regionların tarixini öyrənmək və tədqiq etmək üçün yaradılmış institutlar, elmi mərkəzlər çoxlu sayda və müxtəlif xarakterli monoqrafiyalar, əsər və dərsliklər hazırlayıb nəşr etdirmişlər. Hazırda Qafqazda mövcud olan respublikaların və muxtar qurumların tarixi haqqında da ayrı-ayrılıqda cild-cild əsərlər yazılmışdır. Bununla belə, nə Sovet dövründə, nə də müstəqillik qazanıldıqdan sonrakı illərdə bütövlükdə Qafqaz regionunu əhatə edən ümumiləşdirilmiş əsərlər ortaya qoyulmamışdır. Bu baxımdan, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru İradə Hüseynovanın 2006-cı ildə çapdan çıxmış «Qafqaz xalqlarının tarixi (yeni və ən yeni dövr)» adlı dərsliyi çox əlamətdardır.

Dərslik müəllifi əslində 70 illik Sovet hakimiyyəti illərində böyük elmi-tədqiqat müəssisələrinin, ali məktəblərin yerinə yetirə bilmədiyi ağır və mürəkkəb bir işin öhdəsindən təkbaşına, həm də yüksək peşəkarlıqla gəlməyi bacarmışdır. Müəllif çoxsaylı tarixi ədəbiyyatdan, müxtəlif xarakterli, bir sıra hallarda isə bir-birinə zidd olan mənbələrdən götürdüyü faktları ciddi surətdə təhlil etmiş, sistemləşdirmiş, elmi obyektivliyi gözləməklə sadə və aydın dildə şərh etməyə müvəffəq olmuşdur. Həm də hansı məsələdən bəhs edirsə-etsin, istər siyasi, istərsə də sosial-iqtisadi, yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, azərbaycançılıq mənafeyini daim diqqət mərkəzində saxlamışdır.

Dərslikdə Qafqazın Rusiya imperiyasının regionda geniş işğallara başladığı XIX yüzilliyin əvvəlindən bizim günlərə qədərki tarixi əks olunmuşdur. Rusiya hakimiyyət orqanlarının Qafqazın cənubunda apardığı işğalçı müharibələr, iqtisadi və sosial sahədə atdığı addımlar, müstəmləkə rejimi yaratmaq cəhdləri konkret faktlarla göstərilmiş, yerli əhaliyə qarşı zorakılıq aktları, milli və dini hisslərin tapdalanması, köçürmə siyasəti və onun doğurduğu nəticələr çox aydın və anlaşıqlı bir tərzdə şərh edilmişdir. Çarizmin Şimalı Qafqazda öz mövqeyini möhkəmləndirmək üçün gördüyü tədbirlər: yerli dağlı xalqların yaşayış üçün əlverişsiz olan bölgələrə sıxışdırılması, məhsuldar düzənlik ərazilərdə rusların və digər xristian əhalinin yerləşdirilməsi, yeni qala və istehkamlar inşa edilməsi haqqında ətraflı bilgi verilmişdir. Müəllif çox haqlı olaraq məhz belə kobud milli-müstəmləkəçilik siyasətinin regionda 50 ilə qədər davam edən xalq-azadlıq müharibəsinə gətirib çıxardığını qeyd etmişdir.

XIX əsrin 60-90-cı illərində həyata keçirilən burjua xarakterli is-

lahatlar və onların təsiri ilə Qafqazda baş verən sosial-iqtisadi dəyişikliklərin, ayrı-ayrı bölgələrdə kənd təsərrüfatı və sənaye sahələrində kapitalistcəsinə inkişafın doğurduğu nəticələrin dərslikdə geniş işıqlandırılması təbii sayılmalıdır. Çünki məhz bu zəmində kapitalizm cəmiyyətinin formalaşması, milli burjuaziyanın və bütövlükdə millətin təşəkkülü başlanmış, Qafqaz xalqlarında milli özünüdərk, milli oyanış prosesi güclənmişdir. Müəllifin o dövrün qabaqcıl ziyalılarının, ictimai xadimlərinin milli dili, maarifi, mətbuatı, ümumiyyətlə, milli mədəniyyəti inkişaf etdirmək istiqamətindəki fəaliyyətlərinə xüsusi diqqət yetirməsi təqdirəlayiqdir.

Qafqazda XIX əsrin sonu – XX əsrin ilk onilliklərində milli hərəkatın başlanması, milli və siyasi təşkilatların, partiyaların yaradılması məsələlərindən də ətraflı bəhs edilmişdir. Sadə xalq kütlələrinin öz güzəranını yaxşılaşdırmaq üçün apardıqları mübarizənin çarizmin milli-müstəmləkəçilik siyasətinə qarşı milli-azadlıq mübarizəsi ilə çulğalaşması konkret faktlarla göstərilmişdir. Müəllif tamamilə düzgün olaraq erməni milli birlik və qurumlarının davakar millətçi mövqe tutmasını, bütün qonşularına, xüsusən azərbaycanlılara qarşı bədxah niyyətini ifşa etmiş, Daşnak partiyasının yarandığı zamandan terrorçuluq aktlarını, qətl və qarətləri əsas mübarizə vasitəsinə çevirməsini xüsusilə geniş şərh etmişdir.

Dərslikdə 1917-1920-ci illərdə Qafqaz bölgəsində cərəyan edən ictimai-siyasi proseslər, milli-azadlıq mübarizəsinin güclənməsi, demokratik islahatlar və mədəni müxtariyyət tələblərindən milli dövlətçiliyin bərpasına doğru atılan addımlar ardıcıl qeyd olunmuşdur. Qafqazın gənc müstəqil dövlətlərinin daxili və xarici siyasəti, üzləşdikləri çətinliklər, qonşularla ərazi mübahisələri və münaqişələri, xüsusən də, Ermənistan Respublikasının Gürcüstana və Azərbaycana qarşı təcavüzkar hərəkətləri, müsəlman-türk əhalisinə qarşı zorakılıq tədbirləri, etnik təmizləmə siyasəti haqqında gərəkli bilgilər verilmişdir. Bu bölmədə Rusiya Sovet hökumətinin Qafqazda möhkəmlənmək cəhdləri, yerli kommunist təşkilatlarının fəaliyyəti, sovetləşmə haqqında geniş bəhs edilməsi də, bizim fikrimizcə, faydalı olmuşdur və tələbələrdə həmin dövrün reallıqları haqqında aydın təsəvvür yaranmasına kömək etmək məqsədi güdür.

Müəllif Sovet hakimiyyətinin ilk illərində Qafqazda Sovet dövlət quruculuğu, müttəfiq respublikalar və muxtar qurumlar yaradılması, sənayeləşdirmə və kollektivləşdirmə tədbirləri, mədəni quruculuq sahəsindəki yeniliklər haqqında konkret faktlara istinad etməklə ətraflı məlumat vermişdir. Kütləvi repressiyalar, ikinci dünya müharibəsi dövründə Şimali Qafqazda yaşayan türk və müsəlman xalqlarının zorakı deportasiyası, Ermənistandan azərbaycanlıların çıxarılması, Sovet rəhbərliyinin bilavasitə xeyir-duası ilə erməni millətçi təbliğatının geniş vüsət alması, Azərbaycana qarşı əsassız ərazi iddialarının zaman-zaman qaldırılması haqqında bilgilər, heç şübhəsiz, tələbə auditoriyasının böyük marağına səbəb olan məsələlərdir.

Sovet quruluşunun dağılması, Cənubi Qafqazda 90-cı illərin başlanğıcında milli dövlətçiliyin bərpası, etnik münaqişələr, Şimali Qafqazda milli-azadlıq mübarizəsinin güclənməsi məsələlərinə həsr olunmuş bölmələr müəllifin bilavasitə öz elmi tədqiqatının məhsuludur. İradə Hüseynova dövri mətbuat, rəsmi sənəd və materiallar əsasında yaşadığımız müasir tarixi ilk dəfə olaraq sistemləşdirmiş və ardıcıl təhlil etmişdir.

Qafqaz respublikalarının dünya birliyinə inteqrasiyası, beynəlxalq və regional təşkilatlarda iştirakı məsələlərini səriştə ilə araşdırmışdır. Müəllif öz elmi-tədqiqat prinsipinə sadiq qalaraq Azərbaycan Respublikasının Qafqazda aparıcı siyasi qüvvəyə, regionun ən nüfuzlu dövlətinə çevrilməsi sahəsində ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin işıqlandırılmasına geniş yer ayırmışdır.

Dərsliyin sonunda Qafqaz regionunda son iki yüz ildə baş vermiş mühüm hadisələrin xronologiyası, adlar göstəricisi və geniş ədəbiyyat siyahısı verilmişdir. Bu da ondan praktik istifadə edilməsini daha da asanlaşdırmış, oxucunun hər hansı fakt haqqında dərhal zəruri informasiyanı əldə etməsinə imkan yaratmışdır.

Tarix elmləri doktoru, professor İradə Hüseynovanın bu dərsliyi Qafqazşünaslıq üçün çox dəyərli bir töhfədir və regionun yeni və müasir tarixi ilə maraqlanan hər kəs üçün son dərəcə faydalı və zəruridir.